## АНАЛИЗ САМООБРАЗОВАНИЯ С РАКУСА ПЕДАГОГИЧЕСКОЙ ПРОБЛЕМЫ

***Байрамова Зияфат Вилаят кызы, Абдуллаева Шахана Арзу кызы***

***Резюме***

XXI век был охарактеризован как эра информационных технологий. Главное требование к студенту - не получать информацию из разных источников. Здесь важно приобретать самостоятельные знания.

Получение учащимся социального опыта прошлого сегодня противоречит самоутверждению личности в современных условиях. Поэтому одна из главных задач модернизации современного образования - это формирование личности-самоучки, способной полностью понимать новый мир и условия, идти в ногу с законами и законами природы. Новые задачи требуют не только непрерывного образования, но и навыков самообразования.

Самовоспитание - выступает как высокий уровень самопрезентации личности. Здесь адекватно раскрываются физические и духовные силы человека. Это вид деятельности, при котором саморазвитие человека не только обеспечивает духовную безопасность, но и создает материальные ценности, имеющие субъективное значение.

## ANALYSIS OF SELF-EDUCATION AS A PEDAGOGICAL PROBLEM

***Bayramova Ziyafat Vilayat , Abdullaeva Shahana Arzu***

***Summary***

The 21st century has been characterized as the era of information technology. The main requirement for a student is not to receive information from different sources. It is important to acquire independent knowledge here.

The receipt by students of the social experience of the past today contradicts the self-affirmation of the individual in modern conditions. Therefore, one of the main tasks of modernizing modern education is the formation of a self-taught personality capable of fully understanding the new world and conditions, keeping pace with the laws and laws of nature. New tasks require not only lifelong education, but also self-education skills.

Self-education - acts as a high level of self-presentation of the individual. Here the physical and spiritual powers of a person are adequately revealed. This is a type of activity in which the self-development of a person not only ensures spiritual security, but also creates material values that have subjective significance.

***Rəyçi: dos. A.İ.Quliyev***

***Təhsilin pedaqogikası və metodikası kafedrasının 11.12.2020-ci il tarixdə (pr.№4) online keçirilmiş iclasında təsdiq edilmişdir.***

***Daxil olduğu tarix13 dekabr 2021-ci il***

**UOT:37.**

## MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ŞƏXSIYYƏTININ FORMALAŞDIRILMASI MƏSƏLƏLƏRI

***Məmmədtağıyeva Gövhər Arzuman qızı***

***BDU Qazax filialının müəllimi***

***govharmammadtagiyeva@gmail.com***

**Xülasə:** *Müasir dövrdə məktəbəqədər təhsil müəssisələrində hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi tərbiyə etmək, yeni insan yetişdirmək mühüm vəzifədir. Belə bir vəzifəni yerinə yetirmək üçün uşaq bağçalarında qabaqcıl pedaqoji kollektivlər mövcud imkanlardan*

*səmərəli istifadə edir, təlim-tərbiyə işlərini durmadan təkmilləşdirirlər. Əlverişli imkanlar sırasında tərbiyəçilərin uşaqlara qarşı olan münasibətləri xüsusi yer tutur. Təcrübə göstərir ki, qayğıkeş, tələbkar, səmimi tərbiyəçi-müəllimin uşaqlara xoş münasibəti şəxsiyyətin hərtərəfli inkişafına müsbət təsir göstərir.*

**Açar sözlər:** Məktəbəqədər təhsil, şəxsiyyət, uşaq, tərbiyəçi, kollektiv.

**Ключевые слова:** Дошкольное образование, личность, дети, воспитатель, коллектив.

**Key words:** Preschool education, person, child, educator, collective.

Məktəbəqədər təhsil Azərbaycan Respublikasında fasiləsiz təhsil sisteminin ilk pilləsi kimi fərdin, cəmiyyətin və dövlətin maraqları nəzərə alınmaqla davamlı inkişaf etdirilən prioritet fəaliyyət sahəsidir. Uşağın məktəbdəki uğurlu təhsili, şəxsiyyət kimi formalaşması, ictimai həyatda iştirak etməsi məktəbəqədər dövrdə qoyulmuş təməldən əhəmiyyətli dərəcədə asılıdır. Məktəbəqədər yaş uşağın fəal sosiallaşması, mədəni vərdişləri mənimsəməsi, mənəvi və estetik hisslərin oyanması dövrüdür və qrup şəraitində böyüklər və yaşıdları ilə hərətərəfli ünsiyyət qurmaq və ünsiyyət bacarıqlarını inkişaf etdirmək imkanı əldə edir (1, səh. 3)

Təhsildə əsas dəyər uşaqdır. Məktəbəqədər yaş dövrü isə təkcə məktəb həyatına hazırlıq mərhələsi deyil, eyni zamanda insan həyatının ən məsuliyyətli, ən mühüm yaş dövrüdür ki, bu dövrdə insanda bütün mənəvi dəyərlərin təməli qoyulur. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda deyildiyi kimi, "...Təməl bacarıqlar uşaqlıq dövrünün ilk illərindən əldə edildiyinə görə uşaqların zehninin erkən yaş dövründən inkişaf etdirilməsi vacibdir. Bu səbəbdən məktəbəqədər təhsilin inkişafı dövlət siyasətində əhəmiyyətli yer tutur".

Məktəbəqədər təhsilin keyfiyyəti uşaqların təlim və tərbiyə prosesinin vəziyyəti və nəticəliliyi ilə müəyyən edilir. Məktəbəqədər təhsildə yeni keyfiyyət göstəricilərinə nail olmanın başlıca strategiyası uşaq inkişafının diaqnostikasıdır. Məktəbəqədər təhsil üzrə dövlət standartlarının reallaşdırılmasının keyfiyyəti bilik, bacarıq və vərdişlər sisteminin deyil, hər bir uşağın inkişaf və nailiyyətlərinin yekun diaqnostikası əsasında səriştəliliyin inkişaf səviyyəsi ilə qiymətləndirilir.

Tərbiyə işinin düzgün aparılması tərbiyəçi-müəllimin öz işinə yaradıcı münasibətindən asılıdır. Axı, cəmiyyət ən əziz qiymətli sərvəti olan uşaqları, öz ümidini və gələcəyini ona etibar edir. Tərbiyəçi-müəllim də öz növbəsində şəxsiyyətə xas olan bütün gözəl xüsusiyyətləri özündə cəmləşdirməlidir. Çünki məktəbəqədər yaşlı uşaqlar həyata, insanlara onun gözü ilə baxırlar.

Uşaqlarla işləyən hər kəs bilməlidir ki, onların vəzifəsi uşağın davranışından baş verən nöqsanı pedaqoji ustalıqla aradan qaldırmaqdır. Əgər uşaq başa düşmədiyi bir məsələ ilə əlaqədar müəllimə müraciət edirsə, müəllim ona səbrlə, təmkinlə cavab verməlidir. Uşağın müraciətinə əhəmiyyət verilməzsə, onda müəllim-uşaq münasibətləri pozulur, bu isə müəllimlə uşaq arasında anlaşılmazlıq yaranmasına səbəb olur.

Məlumdur ki, məktəbəqədər yaşlı uşaqlar böyükləri təqlid etməyə daha çox meyilli olurlar. Bunu nəzərə alan müəllim elə etməlidir ki, uşaq hər işdə özünü ona oxşatsın. Müəllim uşaqların yanında o qədər müsbət şəkildə aparmalıdır ki, uşaqların şəxsiyyəti müsbət tərəfə yönəlsin. Belə olduqda heç şübhəsiz, uşaq müəlliminə oxşamaq istəyir, ondan nümunə götürür. Çalışır ki, həyata, insanlara məhz müəllimi kimi münasibət bəsləsin. Bu cəhət heç vaxt uşağa başqalarına, xüsusilə öz müəlliminə mənfi münasibət bəsləməyə yol vermir. O, həmişə öz davranışına tənqidi yanaşır, pis hərəkətlərin baş verməsinə imkan yaratmır, özünə başqasının gözü ilə baxmağı bacarır.

Müəllim hər bir uşağın xarakterik xüsusiyyətlərini bilməli və onlara fərdi yanaşmalıdır. Uşağın xarakteri gələcəkdə onun bir şəxsiyyət kimi formalaşmasında həlledici rol oynayır.

Uşaqlar prinsipial tərbiyəçini sevirlər. Onlar hiss edirlər ki, müəllim tələbkar olmaqla yanaşı, onların şəxsiyyətinə hörmətlə yanaşır. Onun hörmətlə vəhtəddə qoyduğu tələblərə

əməl etmək lazımdır. Çünki verdiyi tapşırığın nəticəsi ilə maraqlanıb hər bir uşağın işini rəğbətləndirəcək.

Uşaqlardan müəllimlərini niyə sevdiklərini soruşanda, onlar qayğıkeş, gülərüz, eyni zamanda tələbkar müəllimlərə üstünlük verirlər. Müəllim hər sadə sözə qayğılı və incə münasibət bəsləyən uşağın qəlbinə bu və ya digər mənada təsir göstərir. Təcrübə göstərir ki, müəllimin sözü uşağın həvəsini söndürür, onun tərbiyəsinə mənfi və ya müsbət təsir bağışlayır.

Tərbiyəçi-müəllim öz fəaliyyətində uşaqların humanistcəsinə tərbiyəsinə zidd olan hallardan qaçmalıdır. Buraya fiziki-psixoloji şiddət, hər kəsin yanında edilən tənqid (Hər kəsin yanında edilən təndiq, təhqirdir – Həzrət Əli), lağ etmək, qorxutmaq, məcbur etmək kimi hallara qətiyyən yol verilə bilməz. Nəzərə alsaq ki, məktəbəqədər yaşda uşaqların nitqi yeni-yeni formalaşmağa başlayır, tərbiyəçi-müəllimlər onlarla nə qədər çox nəzakətli ifadələrlə ünsiyyət qursalar, münasibətləri qarşılıqlı anlaşma şəraitində və məqsədəğuyun şəkildə yaradılmalı və inkişaf etdirilməlidir. Unutmaq olmaz ki,hər bir pedaqoji kollektivdə bu cür münasibət bütöv Azərbaycan Respublikası üçün, xalq üçün faydalı adamlar tərbiyə edilməsi imkanları daha da artır.

Qazax şəhərində fəaliyyət göstərən bir neçə uşaq bağçasında etdiyimiz müşahidələr onu deməyə əsas verir ki, tərbiyəçilər uşağı məşğələ, oyun prosesində müşahidə edir, onların ailəsi ilə sıx əlaqə qurur, evdə özünü necə aparması ilə maraqlanırsa, nəticədə uşaqları özünəməxsus xarakterlərə uyğun olaraq bir neçə qrupa bölmək imkanı əldə edir:

I qrupa aid olan uşaqlar çox gözəl keyfiyyətlərə malik olurlar, yəni onlar dostluqda möhkəm, məşğələlərdə fəal, əməksevərdirlər. Bu qrupa daxil olan uşaqlar kollektivdə nüfuza malik olurlar.

II qrupa aid olan uşaqlar hər işdə yarımçıqdırlar, yəni onlar tez həvəsdən düşürlər və işlərini yarımçıq qoyurlar. Bu uşaqlar çox sakitdirlər, özlərinə qapanırlar, oyun, məşğələ prosesində demək olar ki, iştirak etmirlər, qeyri-fəal mövqe tuturlar.

Əlbəttə, bu qruplar ümumi xarakterlidir. Hər bir uşağın fərdi, özünəməxsus keyfiyyətləri var. Tərbiyəçi-müəllim hər bir qrupla məşğul olmalı, sakit, zəif uşaqları kollektivə uyğunlaşdırmalıdır. Nəzərə almalıdır ki, kollektiv uşaq şəxsiyyətinin formalaşmasında əvəzsiz rola malikdir.

Uşağın kollektivdə tərbiyə edilməsi onun daxili aləminin açılmasında, hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi formalaşmasında böyük rol oynayır. Eyni zamanda kollektiv həyat uşağa müsbət keyfiyyətlər aşılayır. Bu zaman dostluq, yoldaşlıq, mərhəmət, hörmət və s. bu kimi mənəvi keyfiyyətlərlə yanaşı, bacarığın psixoloji xüsusiyyətlərinin tərkibinə hissi, emosional, intellektual, iradi, bir sözlə, şəxsiyyətin ali xüsusiyyətləri təsir edərək, təfəkkür və təxəyyülü formalaşdırır, məqsədə çatmaq üçün möhkəm zəmin yaradır. Bacarıq, insanın nəinki fəaliyyətinin keyfiyyətini təmin edir, həmçinin zəngin təcrübəsi və yüksək əqli inkişafı olduğunu sübut edir.

Kollektiv oyun prosesində uşaqlar arasında münasbətlər formalaşır. O, qurduğu kompozisiyalarda, çəkdiyi şəkillərdə düşüncəsini əks etdirməyə çalışır. Bu dövrdə uşaq öz davranışlarını idarə etmək üzrə müəyyən təcrübə toplayır. Bu isə onun hərtərəfli inkişafına müsbət təsir göstərir. Məktəbəqədər yaşlı uşaqların öz davranışını idarə etmək bacarığı onun diqqətinə, yaddaş və təfəkkürünə təsir göstərir. Onun diqqəti xeyli sabitləşir və ixtiyari yaddasaxlama qabiliyyəti yaranır.

Hər bir uşaq şəxsiyyətinin formalaşdırılması prosesinin mərkəzində onların xoşbəxt həyatının təmin olunması durur. Çünki insan tərbiyəsi ən kiçik yaşlardan başlayaraq uzun sürən mürəkkəb prosesdir. Görkəmli rus pedaqoqu A.S.Makarenko demişdir: uşağın tərbiyəsi uşaq dünyaya gələn gündən başlamalıdır. Çünki körpə özünün uşaqlıq illərində fiziki və psixoloji inkişafının mürəkkəb bir yolunu keçir. O, sürətlə böyüyür, çəkisi artır, bədən quruluşunda orqanizmin fizioloji əsasında uşaqların fiziki cəhətdən hərtərəfli inkişafı üçün

zəmin yaradır (2, səh 16). Biz isə deyirik, uşağın inkişafı ana bətnindən başlayır. Son dövrün texnologiyası isbat edir ki, ananın keçirdiyi bütün hisslərdən başlayaraq, qidalanmasına, fiziki aktivliyinə, hətta dinlədiyi musiqiyə kimi hər şey, uşağın həm fiziki, həm psixoloji inkişafına böyük təsir göstərir.

Məktəbəqədər yaş dövründə uşağın düzgün tərbiyə edilməsi, onda ətraf həyatı dərk etmək üçün böyük əhəmiyyəti olan hiss orqanlarının (görmə, eşitmə, hiss etmə, dad bilmə qabiliyyətinin) intensiv inkişafına səbəb olur.

Məktəbəqədər yaşlı uşaqların şəxsiyyətinin formalaşdırılması məsələlərində biri də onlarda sevinc və qorxu kimi müsbət və mənfi hisslərin ayırd edilməsidir. Bu işin düzgün şəkildə həyata keçirilməsi işində vacib cəhətlərdən biri hər bir uşağa fərdi yanaşmaq, onlarda olan müsbət hissləri aşkar edib möhkəmləndirmək, mənfi hissləri isə aradan qaldırmaq lazımdır.

Əgər hər bir tərbiyəçi uşaqlarla tərbiyə işini düzgün təşkil etsə, o zaman uşaqlar bir-biri ilə tez ünsiyyət qurar, mehribanlaşar, bu da, onlarda xarakterin bütün müsbət əlamətlərini formalaşdırar (3, səh 21). O da danılmaz faktdır ki, uşaqların fiziki sağlamlığının qorunması və möhkəmləndirilməsi, vaxtında fiziki, psixi hissin inkişafı üçün lazımi şəraitin yaradılması, uşaqlarda ümumi hərəkətlərin və əşyalarla rəftarın, yaxın adamlara müsbət emosional münasibətin formalaşması, uşaq şəxsiyyətinin formalaşdırılması qarşısında duran ən mühüm vəzifələrdəndir.

Həmçinin uşaqların həyatının düzgün təşkilində rejim də əsas şərt hesab olunur. Belə ki, düngün gün rejimi və uşaqlarla yüksək peşəkarlıqla qulluq, tərbiyəçi və dayələrin hər bir uşağa sakit və diqqətli münasibəti, mehriban, nəvazişlə danışıq tonu kiçik yaşlı uşaqların şəxsiyyətinin formalaşmasında başlıca rol oynayır. Uşağın emosional vəziyyəti, fəallığı və ətrafdakıları dərk etməsi onun vaxtında yedizdirilməsindən və yaxşı yatmasından çox asılıdır. Gün rejimi uşağın müvafiq yaşını, sağlamlıq vəziyyətini tərbiyəçi hər bir dövrdə yuxunun və oyaqlığın müddətini, onların müəyyən ardıcıllığını və növbələşdirilməsini təmin etməlidir.

Tədqiqat işi ilə əlaqədar Qazax şəhər 1 saylı körpələr evi, uşaq bağçasında apardırğımız müşahidələrə əsasən deyə bilərik ki, kiçik yaşlı uşaqlarda müxtəlif fiziki hərəkətlər tərbiyəçilər tərəfindən düzgün inkişaf etdirilir. Məsələn, düz istiqamətdə yerimək, döşəmə üzərində qoyulmuş taxta üzərində yerimək kimi hərəkətlər onlarda düzgün qamətin formalaşdırılmasına xidmət edir. Bundan başqa, topu diyirlətmək, aşağı atıb-tutmaq, böyük topu uzağa atmaq, tir üstündən aşmaq, ipin altından keçmək kimi hərəkətlər də uşaqlara böyük diqqətlə tərbiyə olunur.

Müşahidələrimiz nəticəsində onun da şahidi olduq ki, uşaqlarda əşyalarla hərəkət zamanı onlara yalnız bir-birinə əks olan ölçüləri fərqləndirmək deyil, az fərqi olan ölçüləri də fərqləndirmək bacarığını formalaşdırmaq, yəni əvvəlcə üç, sonra bir-birindən tədricən kiçildilən 4-5 halqadan qalacıq düzəltmək və yaxud bir-birinin içinə geyindirilmiş gəlincikləri qayda ilə yığmaq, ən kiçik, ən böyük sözləri anlamaq vərdişləri öyrədilir.

Məktəbə hazırlıq qruplarının orta ümumtəhsil məktəblərində aparılmasını əsas götürərək, 5 yaşına kimi uşaqlara karandaşı düz tutmağı öyrətmək, düz, ilanvari, dairəvi xəttlər çəkməyi öyrətmək lazımdır. Həmçinin onlar gil parçasını ovuclarında yumşaldıb hissələrə bölməyi bacarmalıdırlar.

İdman məşğələlərində isə yerində qıç hərəkətlərinin uzlaşdırılması, dırmanmada əl, ayaq hərəkətlərinin növbələşdirilməsi, öz hərəkətlərini yoldaşlarının hərəkətlərinə uyğunlaşdırılması lazımdır.

Nəzərə alsaq ki, sağlam bədəndə sağlam ruh olar, uşaqların sağlam, gümrah və şən böyümələri üçün hər cür imkandan istifadə etmək məqsədəuyğundur. Çünki uşaq şəxsiyyətinin formalaşmasında fiziki sağlamlıq mühüm rol oynayır.

Deyilənləri ümumiləşdirərək, məktəbəqədər yaşlı uşaqların şəxsiyyətinin formalaşdırılması:

- tərbiyəçinin işinin keyfiyyətindən, yəni peşəkarlıq səviyyəsindən;
- kollektivdaxili münasibətlərdən;
- tərbiyəçilərin uşaqlarla işdə yeni metodların, iş formalarının yaradıcı axtarışları üçün müəssisə rəhbərinin yaratdığı şəraitdən;
- hər bir əməkdaşın fəaliyyətinin nəticələrinin obyektiv qiymətləndirilməsindən asılıdır (4, səh 15).

***Ədəbiyyat***

1. Məktəbəqədər təhsilin kurikulumu. Bakı, 2017
2. Makarenko A.S.Valideynlər üçün kitab. Bakı: Azərtədrisnəşr, 1964.
3. Əliyeva Ş. Məktəbəqədər təhsil müəssisələrinin fəaliyyətində sosial istiqamətlilik. // Məktəbəqədər və ibtidai təhsil. 2018, №1,
4.Məktəbəqədər təhsilin yeni məzmununun xüsusiyyətləri. (Metodik tövsiyə). Bakı, 2015

## ПРОБЛЕМЫ ФОРМИРОВАНИЯ ЛИЧНОСТИ ДОШКОЛЬНИКОВ

***Мамедтагиева Говхар Арзуман***

***Резюме***

В статье рассматривается формирование личности дошкольников. Известно, что дошкольники чаще подражают взрослым. Помня об этом, учитель должен следить за тем, чтобы ребенок подражал ему во всем, что он делает. Педагог должен вести детей так позитивно, чтобы личность ребенка была позитивной. В этом случае ребенок, несомненно, хочет быть похожим на учителя, последовать его примеру. Он пытается относиться к людям и к жизни как к своему учителю. Неоспоримый факт, что защита и укрепление физического здоровья детей, создание необходимых условий для своевременного развития физических и умственных чувств, формирование у детей общих действий и установок, формирование положительного эмоционального отношения к близким. .

Режим также является ключевым условием правильной организации жизни детей. Таким образом, вчерашний распорядок дня и высокопрофессиональная забота о детях, спокойное и внимательное отношение воспитателей и медсестер к каждому ребенку, добрый тон, ласковая речь играют ключевую роль в формировании личности маленьких детей. Эмоциональное состояние ребенка, активность и понимание его окружения зависят от его своевременного кормления и хорошего сна. Распорядок дня должен обеспечивать соответствующий возраст ребенка, состояние здоровья, продолжительность сна и бодрствования в каждый период, их определенную последовательность и последовательность.

## PROBLEMS OF PERSONALITY FORMATION IN PRESCHOOLERS

***Mammadtagiyeva Gohar Arzuman***

***Summary***

The article deals with the formation of the personality of preschool children. It is known that preschool children are more likely to imitate adults. With that in mind, the teacher should make sure that the child imitates himself in everything he does. The teacher should lead the children in such a positive way that the children's personality is positive. In this case, the child no doubt wants to be like the teacher, to follow his example. He tries to treat people and life as his teacher. It is also an undeniable fact that the protection and strengthening of children's physical health, the creation of the necessary conditions for the timely development of physical and mental senses, the formation of general actions and attitudes in children, the formation of positive emotional attitudes to loved ones.

Regime is also a key condition for the proper organization of children's lives. Thus, yesterday's daily routine and highly professional care for children, the calm and attentive attitude of educators and nurses to each child, the tone of kind, tender speech play a key role in the formation of the personality of young children. A child's emotional state, activity, and understanding of his surroundings depend on his timely feeding and good sleep. The daily routine should ensure the appropriate age of the child, the state of health, the duration of sleep and wakefulness in each period, their certain sequence and sequence.

***Rəyçi: Pedaqogika üzrə fəlsəfə doktoru H. İlyasov***
***Pedaqogika kafedrasının 14 may 2021 –ci iclasın 12saylı protokolu***
***Daxil olma tarixi 11 noyabr 2021-ci il***

# GƏNC NƏSLIN ŞƏXSIYYƏT KIMI FORMALAŞMASINDA NIZAMININ ƏSƏRLƏRININ ƏHƏMIYYƏTI
## ("Sirlər xəzinəsi" poeması əsasında)

***Şərifova Tünzalə Fərrux qızı***
**Gəncə Dövlət Universiteti**
***tunzale.sherifova@mail.ru***

**Xülasə:** *Bəşəri mövzuları ilə dünya ədəbiyyatında, Yaxın və Orta Şərq xalqlarının bədii təfəkküründə yeni dövr açmış dahi Azərbaycan şairi Nizami Gəncəvi öz ictimai-siyasi və fəlsəfi baxışlarını bədii əsərlərində ifadə etmişdir. "Xəmsə"sində N.Gəncəvi təhsil və tərbiyəsində məsələlərinə geniş yer ayırmışdır. Məhz buna görə də şairin bədii irsi müasir şəraitdə pedaqoji fikir tarixinin tədqiqi üçün əsas mənbə kimi istifadə edilə bilər.*

*Nizami Gəncəvinin yaradıcılığında "Xəmsə"yə daxil olan ilk əsərlərindən olan "Sirlər xəzinəsi"ndəki hekayələr xüsusilə diqqəti cəlb edir. "Sirlər xəzinəsi" didaktik-fəlsəfi janr əsəridir. Burada tək bir süjet yoxdur. Şairin əxlaq təliminin ifadəsinə yönəlmiş fikir və düşüncələri poemadakı hekayətlərdə verilir.*

*Nizami yaradıcılığında şəxsiyyətin əxlaqi – mənəvi keyfiyyətlərinə, şəxsiyyətinstrukturunda fərdi və tipoloji xüsusiyyətlərinə diqqət yetirərək, məsələlərə nəzəri mühakimələr yolu ilə görüşləriniifadə etmişdir.*

*Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poeması çoxsaylı tərbiyə məsələləri və öyüd – nəsihətlərlə zəngindir. Dahi şairin əsərlərində veriən öyüd – nəsihətləri gənc nəslin tərbiyələnməsində, şəxsiyyət kimi formalaşmasında böyük rol oynayır.*

**Açar sözlər:** Gənc nəsil, şəxsiyyət, Nizaminin əsərləri, "Sirlər xəzinəsi" poeması
**Ключевые слова:** Молодое поколение, личность, произведения Низами, поэма «Сокровищница тайн»
**Key words:** Young generation, personality, works by Nizami, poem " The Treasury of Mysteries"

Bəşəri mövzuları ilə dünya ədəbiyyatında, Yaxın və Orta Şərq xalqlarının bədii təfəkküründə yeni dövr açmış dahi Azərbaycan şairi Nizami Gəncəvi öz ictimai-siyasi və fəlsəfi baxışlarını bədii əsərlərində ifadə etmişdir. "Xəmsə"sində N.Gəncəvi təhsil və tərbiyəsində məsələlərinə geniş yer ayırmışdır. Məhz buna görə də şairin bədii irsi müasir şəraitdə pedaqoji fikir tarixinin tədqiqi üçün əsas mənbə kimi istifadə edilə bilər. Nizaminin "Xəmsə"də toplanan epik əsərlər-"Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl", "İsgəndərnamə",əsərləri insanların daxili aləminin saflaşmasına, özlərini dərk